# Mehdiabad qəsəbə uşaq musiqi məktəbi

Son zamanlar uşaq və yeniyetmələrin estetik zövqünü formalaşdırmaq, onların musiqi təhsilini genişləndirmək üçün Respublika Mədəniyyət və Turizm Nazirliyi sistemindəki uşaq musiqi və incəsənət məktəblərinin genişləndirilməsinə böyük diqqət yetirilir, incəsənətimizin gələcək inkişafına böyük qayğı göstərilir. Uşaq musiqi və incəsənət məktəbi şagirdləri təkcə respublikamızda deyil, eyni zamanda dünyanın bir çox iri səhnələrində böyük nailiyyətlər əldə edirlər. Respublikamızın hərtərəfli nailiyyətləri, incəsənətimizin, o cümlədən musiqimizin təntənəsi bu uşaqların simasında özünü bariz şəkildə göstərir.

Qabaqcıl musiqi məktəblərindən söhbət düşərkən Abşeron rayonunun Mehdiabad qəsəbə uşaq musiqi məktəbinin nailiyyətlərindən danışmamaq olmur. Bu musiqi məktəbi 1984-cü ildə fəaliyyətə başlamışdır. Bu müddət ərzində məktəbi yüzlərlə uşaq bitirərək böyük musiqi aləminə qədəm basmışdır. Məktəbin məzunları respublikamızın musiqi təmayüllü ali və orta ixtisas məktəblərinə daxil olmuş, böyük nailiyyətlər əldə etmişlər. Məktəbin məzunları indi respublikamızın müxtəlif musiqi və incəsənət məktəblərində dərs deyir, uşaqların musiqi təhsili ilə yaxından məşğul olurlar.

Məktəbin direktoru, musiqi ixtisas təhsilli, təcrübəli müəllim Təranə Ağalarova ilə söhbət edərkən o bildirdi ki, indi məktəbdə 8 ixtisas üzrə fortepiano, tar, saz, kamança, qarmon, nağara, skripka və xanəndəlik ixtisasları üzrə uşaqlara dərs keçilir. Hazırda məktəbdə 250 şagirdə 60 nəfər ixtisaslı müəllim dərs deyir. Bu müəllimlərin gərgin əməyinin nəticəsidir ki, məktəb bir çox uğurlar əldə etmişdir. Məktəbin müəllim və şagird kollektivi respublika və rayon tədbirlərində yaxından iştirak edirlər, respublika müsabiqələrində fərqləndirici yer tuturlar. Məsələn, Pərvin Abdullayeva tar ixtisası üzrə III yerə, Gülbayaz Dadaşova saz ixtisası üzrə diploma, Şahnaz Ələkbərova, Nərmin Dünyamalıyeva fortepiano ixtisası üzrə tərifnaməyə layiq görülmüşlər.



Məktəbin ən böyük nailiyyətlərindən biri də odur ki, respublikamızda keçirilən I Avropa Oyunlarının məşəl təqdimatında məktəbin müəllim və şagirdlərindən ibarət konsert briqadası Quba, Qusar, Abşeron rayon Ceyranbatan qəsəbə, Xırdalan şəhər musiqi məktəblərində konsert proqramları ilə çıxış etmişlər.

Kollektiv eyni zamanda Xırdalan şəhərindəki Heydər Əliyev mərkəzində hesabat konsertində də yaxından iştirak etmişdir. Təranə xanım onu da qeyd etdi ki, məktəbin əldə etdiyi nailiyyətlər respublikamızın bir çox dövri mətbuatında işıqlandırılmış, məktəbin kollektivi İctimai televiziya kanalında, Sumqayıt kanallarında çıxış etmişdir.

Məktəb xidmət sahələrindəki 1, 2, 3, 4 saylı tam orta məktəbləri ilə daim əlaqəli şəkildə tədbirlər keçirir. Bu məktəblərlə birgə təşkil olunmuş "Novruz gəlir, yaz gəlir" adlı konsert proqramı tamaşaçıların qəlbində dərin iz buraxmışdır.

Məktəbin skripka sinfinin şagirdləri xarici ölkələrdə də müvəffəqiyyətlə çıxışlar etmişlər. Şagirdlər Məhəmməd Məmmədov və Emin Quliyev Türkiyə Respublikasında iştirak etmiş və böyük müvəffəqiyyət əldə etmişlər. Burada keçirilən "23 Nisan cocuq" festivalındakı çıxışları diploma layiq görülmüşdür.

Onu da qeyd etmək lazımdır ki, hər il olduğu kimi, bu ildə I sinif şagirdlərinin "Not bayramı" uğurla keçmişdir.

Bütün bu nailiyyətlərin əldə olunmasında məktəb müəllimlərinin əməyi böyükdür. Məktəbin məzunları hər il respublikamızın incəsənət və musiqi təmayüllü ali və orta ixtisas məktəblərinə daxil olurlar. Məsələn, məktəbin məzunlarından Heydər Abdullayev Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə, Sədəf Süleymanova Asəf Zeynallı adına musiqi kollecinə, Zeynəb Bağırova nəzəriyyə üzrə musiqi kollecinə daxil olmuşlar ki, bu faktın özü bu məktəbin uğurundan xəbər verir.

**Zabit CAVADOV,**
**"Respublika".**